DOI: https://doi.org/10.36719/2663-4619/112/59-65

**İsmayıl Şəfaqətov**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
https://orcid.org/0009-0009-3167-7966
ismayilshefagetov@gmail.com

# Aqrar iqtisadiyyatın inkişafında innovasiya

**Xülasə**

Məqalədə aqrar sferanın ixrac potensialının inkişaf məsələləri geniş şəkildə araşdırılmışdır. Qloballaşan dünyada kənd təsərrüfatı məhsullarının beynəlxalq bazarlara çıxışı, yerli istehsalın gücləndirilməsi və ixrac imkanlarının genişləndirilməsi ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyır. Bu kontekstdə, kənd təsərrüfatının ixrac potensialının artırılması üçün məhsul keyfiyyətinin yüksəldilməsi, beynəlxalq standartlara uyğun sertifikatlaşdırma proseslərinin təkmilləşdirilməsi və logistika infrastrukturunun gücləndirilməsi kimi məsələlər ön plana çıxır.

İqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatı sektorunda da dövlətin mərkəzləşdirilmiş nəzarətinin əhəmiyyəti vurğulanmışdır. Məqalədə aqrar sahənin inkişafının stimullaşdırılması üçün bir sıra tövsiyələr də əks etdirilmişdir. İlk növbədə, fermerlərə dövlət tərəfindən texniki və maliyyə dəstəyinin artırılması, innovativ texnologiyaların kənd təsərrüfatına inteqrasiyası və məhsuldarlığın yüksəldilməsi məqsədilə müasir kənd təsərrüfatı praktikalarının tətbiqi təklif edilir.

Müasir dövrdə dövlətin aqrar sektora göstərdiyi dəstək və onun nəticəsi olaraq ixrac potensialının artması, rəqabət qabiliyyətinin güclənməsi də təhlil edilərək, bu prosesdə mövcud problemlərin aradan qaldırılması yolları araşdırılmışdır. Rəqabətqabiliyyətli məhsul istehsalının artırılması üçün aqrar istehsalçılara güzəştli kreditlərin verilməsi, elmi-tədqiqat mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi və kənd təsərrüfatı məhsullarının emalı sahəsində innovasiyaların tətbiqi tövsiyə olunur.

Beləliklə, məqalədə aqrar sferanın ixrac potensialının artırılması, dövlət dəstəyinin gücləndirilməsi, rəqabət qabiliyyətinin yüksəldilməsi və kooperativ təsərrüfat modelinin tətbiqi kimi vacib məsələlər ətraflı şəkildə araşdırılmış, mövcud problemlərin həlli istiqamətində bir sıra tövsiyələr təqdim olunmuşdur. Bu yanaşmalar kənd təsərrüfatı sektorunun davamlı inkişafını təmin edərək, Azərbaycanın aqrar iqtisadiyyatının güclənməsinə və beynəlxalq bazarlarda mövqeyinin möhkəmlənməsinə töhfə verə bilər.

***Açar sözlər:*** *aqrar sfera, ixrac potensialı, stimullaşdırma, inkişaf, kənd təsərrüfatı, bazar, kooperasiya, rəqabət, istehsal*

**Ismayil Shafagatov**
Azerbaijan State University of Economics
Master student
https://orcid.org/0009-0009-3167-7966
ismayilshefagetov@gmail.com

# Innovation in the Development of the Agrarian Economy

**Abstract**

The article extensively examines the issues related to the development of the export potential of the agricultural sector. In a globalized world, the access of agricultural products to international markets, the strengthening of local production, and the expansion of export opportunities hold strategic importance for the national economy. In this context, enhancing the export potential of agriculture requires improvements in product quality, the refinement of certification processes in compliance with international standards, and the strengthening of logistics infrastructure.

As in all sectors of the economy, the importance of centralized state control in the agricultural

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

sector has been emphasized. The article also presents several recommendations for stimulating the development of the agricultural sector. Primarily, it is proposed to increase technical and financial support from the state for farmers, integrate innovative technologies into agriculture, and implement modern agricultural practices to boost productivity.

In the modern era, state support for the agricultural sector and, as a result, the growth of export potential and the strengthening of competitiveness have been analyzed, along with exploring ways to address existing challenges in this process. To enhance the production of competitive products, it is recommended to provide concessional loans to agricultural producers, expand the activities of scientific research centers, and implement innovations in the processing of agricultural products.

Thus, the article thoroughly examines critical issues such as increasing the export potential of the agricultural sector, strengthening state support, enhancing competitiveness, and implementing the cooperative farming model. Several recommendations are presented to address existing challenges. These approaches can ensure the sustainable development of the agricultural sector, contribute to the strengthening of Azerbaijan's agrarian economy, and enhance its position in international markets.

***Keywords:*** *agricultural sector, export potential, stimulation, development, agriculture, market, cooperation, competition, production*

## Giriş

70 ilə yaxın bir müddətdə Sovetlər İttifaqı daxilində mərkəzi idarəetmə sisteminin bir hissəsi kimi qalan Azərbaycanın bu prosesdə qarşılaşmış olduğu ciddi iqtisadi çətinlikləri olmuşdur. Xüsu-silə, Sovet İttifaqının ilk dövrlərində qarşıya çıxan iqtisadi problemlər, ardınca İkinci Dünya müharibəsi, daha sonra SSRİ-nin ABŞ ilə etdiyi soyuq müharibə dövrü, tətbiq olunan ciddi mərkəzi idarəetmə sistemi, 1980-ci illərdəki SSRİ-nin iqtisadi çökməsi, əldə edilən müstəqillik prosesi və onun meydana gətirmiş olduğu nəticələr Azərbaycan üçün çox çətin bir iqtisadi dövrün keçməsinə səbəb olmuşdur. Uzun bir müddət öz nəzarətində olmayan iqtisadi proqramlar həyata keçirmək məcburiyyətində qalan ölkənin iqtisadi istehsal struktura da xeyli dəyişmişdir. Mərkəzin istəyi əsasında yaranan istehsal strukturunda, digər SSRİ respublikaları kimi, Azərbaycanın da üzərinə düşən yeganə vəzifə verilən planları vaxtında və qüsursuz olaraq yerinə yetirmək olmuşdur. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatında da nəzarət tamamilə mərkəzə aid olmuşdur. Kənd təsərrüfatı sahələri istiqamət dəyişdirərək, kolxoz və sovxozlar vasitəsi ilə istənilən istehsala cəlb edilmişlər. Bu dövrdə artan əhalinin ərzaq tələbatının ödənilməsi daxilində kənd təsərrüfatında kimyəvi gübrələrin istifadəsi də artmışdır.

## Tədqiqat

### Azərbaycanda aqrar sektorun inkişaf problemləri

Müstəqillikdən sonrakı dövrdə də Azərbaycanda müxtəlif kənd təsərrüfatı problemləri yaşanmış-dır. Ətraf mühit amilini çox nəzərə almadan istifadə edilən kimyəvi maddələr və yalnış suvarma texnikaları ölkədə minlərlə hektar əraziləri istifadəsiz vəziyyətə gətirmişdir. Daha sonrakı illərdə isə aqrar məhsullara olan tələbin artması ilə şüursuz şəkildə istifadə edilən kimyəvi maddələr ciddi ətraf mühit və sağlamlıq problemləri meydana gətirmiş və gətirməyə də davam edir. Geniş və səmərəli təsərrüfat sahələrinə malik Azərbaycanda da onların tətbiqi ətraf mühit və insan sağlığı baxımından müsbət nəticələr doğura bilər. Son illərdə neft gəlirlərinə bağlı olaraq dəyişməyə başlayan sosial-iqtisadi quruluş ilə yanaşı, başda kənd təsərrüfatı sektoru olmaqla qeyri-neft sektorunun inkişaf etdirilməsi əsas siyasətlərdən biri halına gəlmişdir (10). Pozulmağa üz tutan ekoloji tarazlıqlar, tor-paqların məhsuldarlığının azalması, səhralaşma, erroziya, duzlaşma, artan miqrasiya, kənd təsərrüfatı məhsul mənbəli səhiyyə problemlərinin yayılması ölkədə geniş imkanları olan kənd təsərrüfatının inkişaf etməsini zəruri hala gətirir (Alıyev, 2004, s. 181). Texnika və texnologyanın inkişafı ilə meydana gələn yaşıl inqilab kənd təsərrüfatı istehsalını artırmaqla yanaşı, bir sıra mənfi cəhətləri də bərabərində gətirmişdir. Bu baxımdan, təsərrüfata bağlı çirkləndirmənin və qeyrisağlam kənd təsər-rüfatı məhsul yetişdiricilərinə qarşı alternativ olaraq meydana gələn təbii kənd təsərrüfatının bir çox ətraf mühit problemini həll edəcəyinə inanılır. Kənd təsərrüfatı təbiətdə mövcud olan təbii sərvətlərin pozulmasının və yararsız hala gəlməsinin qarşısını almaqla bir sıra ətraf mühit probleminin aradan qaldırılmasına səbəb olur (Abbasov, Həsənov, 2002).

**Aqrar sektorun stimullaşdırılmasını zəruri edən məsələlər**

Müstəqillikdən sonra ciddi iqtisadi və siyasi çətinliklərlə üzləşən Azərbaycanda mühüm kənd təsərrüfatı potensialının olduğu məlumdur. Torpaqların 20%-nin Ermənistan tərəfindən işğal edilməsinə baxmayaraq səmərəli aqrar sahələrin mövcudluğu və əlverişli iqlim şəraiti ölkədə ixrac gücünə malik aqrar quruluşu meydana gətirmişdir. Belə bir təsərrüfat imkanının isə təbii kənd təsərrüfatı baxımından qiymətləndirilməsi, bu sahəyə olan marağın son illərdə artmağa başladığını da düşünsək, böyük əhəmiyyət kəsb etdiyini görərik (Azərbaycan Respublikasının Kənd Təsərrüfatı, 2007, s. 198). Kənd təsərrüfatının Azərbaycanda bir çox təsərrüfata bağlı ətraf mühit problemlərini həll edə biləcəyi, şəhərsalma, duzlaşma, erroziya kimi mənfi hallara çarə olacağı, miqrasiya və sağlam qida məhsulları əldəetmə imkanlarını təmin edərək regional inkişafa töhfə verəcəyi aydın görünən bir həqiqətdir (Qarayev, 2011). Bütün bunlarla yanaşı kənd təsərrüfatının ölkədə inkişafı üçün aşağıdakı stimullaşdırılma tədbirlərinin keçirilməsi vacibdir: - ilk növbədə ölkədə təbii təsərrüfatla bağlı hüquqi bazanın hazırlanması, lazımi qanunların parlamentə çıxarılması lazımdır; - istehsalçı və istehlakçılar bu barədə məlumatlandırılmalı, bu məsələdə müxtəlif akademik işlərin görülməsi təşviq edilməlidir; - yalnız ixraca yönəlik kənd təsərrüfatı istehsalının qurulması deyil, eyni zamanda daxili bazarda da tələbatın yaranması üçün səy göstərilməlidir; - kənd təsərrüfatı istehsalı üçün lazımi infrastruktur işlərinin aparılması və keçidin sürətləndirilməsi düşünülməlidir (Azerbaycanın Statistik Göstəriciləri, 2002-2003-2004, s. 292); - daha sonrakı mərhələdə isə üzvi kənd təsərrüfatı istehsalçılarını bir araya gətirən birlik və təşkilatlar yaradılmalı, audit və nəzarət şirkətləri ilə əlaqədar olaraq istehsalçılara yardım edəcək qurumların fəaliyyətə keçməsi təmin olunmalıdır. - istehsalçılar tərəfindən beynəlxalq qurumların təbii əkinçiliyə vermiş olduğu maddi dəstək və fürsətlər yaxından təqib edilməli bu sahə ilə bağlı müxtəlif dərnək və təşkilatlara üzv olunaraq bilik və təcrübə mübadiləsi aparılmalıdır (Əliyev, 2001, s. 176).

**Aqrar sferada kooperasiyanın inkişafı**

Azərbaycan Respublikasının kənd təsərrüfatının fundamental bazasının bünövrəsi 90-cı illərin ortalarında ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən ilk aqrar islahatlar nəticəsində qoyulmuşdur. Bu bünövrə aqrar sektorun müasir inkişaf mərhələsində mürəkkəb təsərrüfat forması sayılan kooperasiya kimi münasibətlər sisteminin tətbiq edilməsinə zəmin yaradıb (Qasımov, 2007). Fermer təsərrüfatlarının birləşməsi nəticəsində əldə olunmuş məhsulun və gəlirin ədalətli bölgüsündə ümumi razılığa gələ bilmir, tərəddüd keçirirdilər. Bir-biri ilə rəqabət aparması, fəaliyyətlərində ümumi maraqların formalaşmaması ümumilikdə, aqrar sahədə kooperasiya tipli istehsal münasibətlərinin inkişafını da ləngitmişdir (Qarayev, 2011). Əslində, belə bir vəziyyət fərdi təsərrüfatçılıq prinsipləri əsasında fəaliyyət göstərilməsini labüd edirdi. Kooperasiya hərəkatını ləngidən bu səbəblər, eyni zamanda, kənd təsərrüfatı istehsalının ixtisaslaşması, infrastrukturun təmərküzləşməsi, istehsalçıların maliyyələşməsi, sahələrarası inteqrasiya və digər proseslərə də mənfi təsir göstərir (13). Müasir şəraitdə dövlətimizin aqrar sahəyə göstərdiyi dəstəyi nəzərə alaraq, deyə bilərik ki, ixrac potensialının artması, daxili istehlak bazarının təmin olunması və digər məsələlərin həlli kooperasiyaların yaradılmasına, birləşməyə və nəticədə milli aqrar sahənin rəqabət qabiliyyətinin artmasına gətirib çıxaracaq. Bundan başqa, ixrac potensialının artırılması, ilk növbədə, böyük həcmdə məhsul istehsalını tələb edir. Təbii ki, belə şəraitdə kiçik fermer təsərrüfatları xarici istehsalçılarla rəqabətdə tab gətirə bilməzlər və buna görə də onların birləşməsi labüddür. Hazırda kooperasiya tipli təsərrüfat formalarının yaradılması qaçılmaz prosesdir. Bunun üçün səmərəli iqtisadi mexanizmlər dizaynı qurulmalıdır ki, fermerlər kooperativ hərəkata qoşulmazdan qabaq fayda əldə edəcəyinə əmin olsunlar. Bildiyimiz kimi, kənd təsərrüfatı kooperativlərinin yaranması çoxpilləli prosesdir. Əvvəlcə aqrar sahədə torpaq mülkiyyəti əsasında kənd təsərrüfatı istehsal kooperativləri yaranmalıdır. Bu, istehsalın artmasına gətirib çıxarar ("Aqrar islahatın nəticələri və dayanıqlı inkişaf problemləri" (respublika elmi-praktiki konfransının materialları), 2006). İstehlak kooperasiyası isə emal və satış prosesini əhatə edərək, bütünlükdə, aqrar istehsalın sabitliyini təmin edir. İkinci mərhələdə kənd təsərrüfatı kooperativləri təkcə aqrar sektor təmsilçiləri ilə yox, digər sahələrdə fəaliyyət göstərən müəssisələrlə də korporativ əlaqələr yaradır. Kənd təsərrüfatında istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsində başlıca istiqamət-iqtisadi münasibətlərin yeni şəraitə uyğun qurulması, onun daima təkmilləşdirilməsidir (İbrahimov, 2002, s. 374). Daha sonra isə regional səviyyəyə çataraq, sahə assosiasiyaları və ittifaqlar

təsis olunur, beynəlxalq assosiasiyalara daxil olmaq mərhələsi başlayır. Kooperasiya prinsiplərinə əsaslanan iri təsərrüfat üstünlüklərə malik olması ilə bərabər (subsidiyaların alınması, kreditlər və investisiyaların cəlb edilməsi, istehsal-emal-satış tsiklinin tam qurulması, aqrotexniki xərclərin azalması, toxum, cins mal-qara və texnikanın satın alınması və s.), istehsalçılara çoxsaylı risklərin təsir dərəcələrinin azalmasına da imkan verəcək. Belə ki, kənd təsərrüfatı və ərzaq məhsullarının satış qiymətlərində aqrar istehsalçıların xüsusi çəkisi yüksələcək və nəticədə onların gəlir səviyyəsi artacaq. Kənd təsərrüfatında investisiyaların stimullaşdırılmasında əsas amillər qismində müəyyən bölgələrdə torpaqdan və sudan istifadə etmək imkanının mövcudluğu çıxış edir (İbrahimov, 2005, s. 144). Prezident İlham Əliyev tərəfindən iyulun 14-də təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nı aqrar sahənin gələcəyinə və inkişafına xidmət edən fundamental bazanın qurulmasının əsas mərhələsi kimi qəbul etmək olar. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr əsasən aşağıdakılardan ibarətdir:

– kənd təsərrüfatı kooperativlərinin sayının və aqrar istehsalın bütün mərhələlərində onların xüsusi çəkisinin artması. Bunun nəticəsində kənd təsərrüfatı məhsullarının emalı və ixracının çoxalması;

– xırda təsərrüfatların birləşməsi və müvafiq infrastrukturun yaradılması nəticəsində torpaq sahələrindən səmərəli istifadə edilməsi;

– kənd təsərrüfatı kooperativlərinin əhatə etdiyi iri torpaq sahələrində müasir irriqasiya sistemlərinin qurulması;

– kooperativlərdə birləşmiş kənd təsərrüfatı istehsalçılarına ayrılan kreditlərin həcminin artması;

– kənd təsərrüfatı kooperativlərində əlavə iş yerlərinin yaradılması;

– kənd yerlərinin dayanıqlı inkişafı üçün əlverişli şərait yaranması.

Xarici təcrübəyə əsasən, milli iqtisadiyyatın inkişafında bələdçi rolunu oynayan Strateji Yol Xəritəsi postböhran mərhələsinə qədəm qoymuş və sabit makroiqtisadiyyata malik ölkələrdə tətbiq olunur. Son illərdə neft gəlirlərinin azalması və nəticədə milli valyutanın kəskin devalvasiyaya uğraması illərlə sabit vəziyyətdə saxlanılan makroiqtisadi tarazlığın pozulmasına gətirib çıxarıb. Aqrar sahədə istehsalın iqtsadi səmərəliliyinə bir çox amillər təsir göstərir. Bu amillər bir-biri ilə qarşılıqlı əlaqə və asılılığa malikdir (İbrahimov, 2014). Yəni, bu və ya digər amillər istehsalın inkişafına və iqtisadi səmərəliliyin yüksəldilməsinə təsir edir. Həm də digər amillərin təsir səviyyəsinin artıb-azalmasına səbəb olur. Ona görə də, istehsalın səmərəliliyinin yüksəldilməsi amilləri aqrar sahənin spesifik xüsusiyyətləri ilə əlaqədar kompleks şəkildə nəzərə alınmalıdır (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Strateji Yol Xəritəsi", s. 536).

**Kənd təsərrüfatında aqrar sferada kənd təsərrüfatı məhsullarının istehsalının inkişafı**

Hazırda dövlət inflyasiyanı nəzarətdə saxlamaq üçün sərt monetar siyasət həyata keçirir. Lakin qısamüddətli olsa da, təsiredici gücə malik monetar və fiskal siyasətin alətləri uzun müddətə nəzərdə tutulmuş davamlı iqtisadi inkişaf tempinin artmasına yararlı deyil. Yalnız qısamüddətli sabitlik vəziyyətində, ilk növbədə, staqflyasiya prosesini müəyyən dərəcədə ləngitmək olar. Bu da istehsalın restrukturizasiyasına yönəldilmiş strateji layihələrin həyata keçirilməsinə və keyfiyyət baxımından iqtisadi artıma nail olunmasına münbit şərait yaradır. Bu baxımdan Prezident İlham Əliyevin dekabrın 6-da imzaladığı Fərmanla təsdiqlənmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ni uzunmüddətli, dayanıqlı iqtisadi artım şəraitinə doğru "ötürücü mexanizm" rolunu oynayan ən mühüm sənəd kimi xarakterizə etmək olar. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalının davamlılığına təsir edən amillər əsasında yol xəritəsinin əsas prinsipləri müəyyənləşdirilib. İstehsalın iqtisadi səmərəliliyini kəmiyyətcə ölçmək zərurəti elə göstəricilər sistemini tələb edir ki,onların köməyi ilə həmin səmərə və həm də onu əldə etmək üçün məsrəflərin kəmiyyəti tam və dəqiq müəyyən oluna bilsin (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, s. 211). Başlıca prinsip ölkənin aqrar sektorunun mövcud istehsal imkanlarına və daxili ərzaq bazarının tələbatına uyğun olaraq, strateji planın hazırlanmasıdır. Bunun reallaşması üçün sabit istehsal dinamikasının yüksəlməsi nəticəsində əhalinin ərzaqla təminatında daxili imkanlardan maksimum faydalanmaq prioritet hesab olunur. İlk növbədə, xarici ölkələrdən

ərzaq asılılığının mümkün qədər azaldılması nəzərdə tutulur. Buna nail olmaq üçün daxili istehsalçının rəqabət qabiliyyətinin artırılması, gəlir bazasının genişləndirilməsi yolu ilə istehsalın stimullaşdırılması istiqamətində konkret tədbirlər (diferensial subsidiyalaşma, məhsuldarlığın və gəlirlərin sığortalanması, transaksion xərclərin azaldılması və sair) planlaşdırılır. Qeyd etmək lazımdır ki, aqrar sferada istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün hər şeydən əvvəl iqtisadi səmərəliliyin əsas nəzəri və praktiki cəhətləri düzgün qiymətləndirilməli, mahiyyəti və məzmunu elmi cəhətdən əsaslandırılmalıdır (Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, s. 357). Bu prinsiplərin reallaşması naminə aqrar siyasət üç əsas istiqamətdə həyata keçirilməlidir. Belə ki, daxili bazarlarda tələb və təklif parametrlərinin düzgün müəyyənləşdirilməsi baxımından kənd təsərrüfatı məhsullarının qiymət tənzimlənməsi mexanizmlərinin işlənib hazırlanması nəzərdə tutulur. Ən önəmlisi, daxili bazara rəqabətqabiliyyətli yerli məhsullar çıxararaq istehlakçıların tələbatını ödəməkdir. Burada daxili bazarın xüsusiyyətlərini təhlil edərək çeşidlilik, subsitutluq və digər elementlər nəzərə alınır. Bunun üçün ərzaq təhlükəsizliyi və idxal əvəzedici mexanizmlərin ayrı-ayrılıqda yox, kom-pleks şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Əvvəla, ərzaq təhlükəsizliyi səviyyəsinin artırıl-masına əsaslanan tədbirlərin davamlılığı ilə bərabər, daxili bazarda idxal məhsullarına qarşı iqtisadi üsullar vasitəsilə rəqabət aparmaqla, istehlakçının alıcılıq qabiliyyətinə uyğun keyfiyyətli məhsulların təklifi artırılmalıdır (Abbasov, 2007). Növbəti prinsip müasir texnologiyalardan yetərincə yararlanmaq, onları istehsal prosesində fəal şəkildə tətbiq etməkdir. Bu zaman əsas diqqət məhsuldarlığın artırılmasına, il ərzində azı iki dəfə məhsul götürülməsinə, ərzaq məhsullarının istehsalında daha dərin emal prosesinin qurulmasına yönəldilməlidir. Bazar münasibətlərinin formalaşdığı şəraitdə ölkənin sosial-iqtisadi yüksəlişi və əhalinin ərzaqla təminatının yaxşılaşdırılması kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə yanaşı həlledici səviyyədə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsindən asılıdır (Əhmədov, 2006). Yerli istehsalın stimullaşdırılması sahəsində ixrac potensialının artması planlaşdırılır. Bu da daxili bazarın tələbatının daha dolğun ödənilməsinə, kənd təsərrüfatı istehsalının canlandırılmasına, nəticə etibarilə istehsal və istehlak maraqları əsasında bütöv texnoloji və istehsal tsiklinə malik iri təsərrüfatların meydana gəlməsinə zəmin yaradacaqdır (Salahov, 2004). Strateji Yol Xəritəsinin əsas məqsədlərindən biri də dünya ərzaq və kənd təsərrüfatı bazarına ekoloji cəhətdən təmiz məhsul ixracını maksimum artırmaqdır. Burada, əsasən ərzaq məhsullarının dərin emal prosesində robotlaşdırma texnologiyalarının tətbiqi, yüksək məhsuldar cins heyvanların, bitki sortlarının və biotexnologiyaların istifadəsi nəzərdə tutulur. Həmçinin güclü elm və təhsil komplekslərinin yaradılması, kənd təsərrüfatı məhsullarının və ərzaq tullan-tılarının dərin və kompleks emalı texnologiyalarının tətbiqi və sair planlaşdırılır (Aslanov, 2010).

## Nəticə

Qloballaşma prosesində kənd təsərrüfatı mənşəli müxtəlif mühit problemlərinin qarşısının alınması vacibdir. Qlobal istiləşmə, torpağın deqradasiyası, su ehtiyatlarının azalması və kimyəvi gübrələrin həddindən artıq istifadəsi ekosistemə ciddi təsirlər göstərir. Buna görə də, davamlı kənd təsərrüfatı metodlarının tətbiqi, ekoloji standartlara uyğun istehsal proseslərinin təşviq edilməsi və təbii resurslardan səmərəli istifadənin artırılması əsas prioritetlərdən biri olmalıdır.

Eyni zamanda, kənd təsərrüfatının Azərbaycanda inkişaf etməsi ölkənin iqtisadi sabitliyinə və ərzaq təhlükəsizliyinə mühüm töhfə verir. Azərbaycanın geniş kənd təsərrüfatı potensialı mövcuddur və bu sahənin inkişaf etdirilməsi həm yerli istehsalçıların mövqeyini gücləndirəcək, həm də idxaldan asılılığı azaldacaq. Aqrar sektorun güclənməsi, həmçinin regionların sosial-iqtisadi inkişafına təkan verərək kənd yerlərində məşğulluğu artıracaq.

Prosesin planlı və sistemli şəkildə aparılması da böyük əhəmiyyət kəsb edir. Kənd təsərrüfatı sahəsində uğurlu inkişafın təmin edilməsi üçün strategiyalar elmi yanaşma ilə hazırlanmalı və uzunmüddətli perspektivlər nəzərə alınmalıdır. Davamlı inkişafın təmin olunması məqsədilə dövlət siyasəti və özəl sektor əməkdaşlıq etməli, innovativ texnologiyalar kənd təsərrüfatında geniş tətbiq olunmalıdır.

Bundan əlavə, müvafiq qanunların həyata keçirilməsinə istehlakçıların da cəlb edilməsi vacibdir. İstehlakçılar yerli məhsulların keyfiyyəti, istehsal prosesində tətbiq olunan texnologiyalar və ekoloji standartlar haqqında məlumatlandırılmalı, onların aqrar sektorun inkişafında aktiv iştirakını təmin

edən mexanizmlər hazırlanmalıdır. Bu, həm bazar iştirakçılarının şüurlu seçim etməsinə kömək edəcək, həm də sağlam və təhlükəsiz qida istehlakını təşviq edəcək.

Kənd təsərrüfatında ərzaq məhsullarının satış qiymətlərində aqrar istehsalçıların xüsusi çəkisinin artırılması da prioritet məsələlərdən biridir. Hazırda kənd təsərrüfatı istehsalçılarının əldə etdiyi gəlir ilə bazardakı son satış qiymətləri arasında ciddi fərq var. Bu, vasitəçilərin çoxluğu və bazar mexanizmlərinin qeyri-effektiv işləməsi ilə bağlıdır. Fermerlərin məhsullarını daha əlverişli şərtlərlə bazara çıxarması üçün kənd təsərrüfatı kooperativlərinin gücləndirilməsi, müasir logistika və satış kanallarının inkişaf etdirilməsi vacibdir.

Eyni zamanda, kənd təsərrüfatı kooperativlərində yeni iş yerlərinin yaradılması da diqqət mərkəzində olmalıdır. Kooperativlər yalnız fermerlərin birgə fəaliyyətini təşkil edən qurumlar deyil, eyni zamanda yeni iş imkanları yaradan iqtisadi strukturlardır. Bu cür təsisatlar istehsalın genişləndirilməsi, məhsul emalı və ixrac potensialının artırılması üçün vacibdir. Əhalinin kənd təsərrüfatı sektorunda daha aktiv iştirakı üçün onların bilik və bacarıqlarının artırılması, müasir texnologiyalara yiyələnmələri dəstəklənməlidir.

Nəhayət, yerli istehsalın stimullaşdırılması çərçivəsində ixrac potensialının artırılması və daxili bazarın tələbatının ödənilməsi əsas məsələlərdən biridir. Azərbaycanın kənd təsərrüfatı məhsulları beynəlxalq bazarda rəqabət qabiliyyətli olmalıdır. Bunun üçün istehsal keyfiyyəti artırılmalı, beynəlxalq sertifikatlar alınmalı və ixrac üçün effektiv logistik infrastruktur yaradılmalıdır. Paralel olaraq, daxili bazarda keyfiyyətli yerli məhsullara olan tələbatın ödənilməsi üçün fermerlərə dəstək proqramları genişləndirilməli, istehsalçılarla istehlakçılar arasında daha şəffaf və effektiv əlaqələr qurulmalıdır.

Bütün bu addımlar Azərbaycanın kənd təsərrüfatı sektorunun davamlı inkişafını təmin edəcək, ölkənin ərzaq təhlükəsizliyini möhkəmləndirəcək və kənd təsərrüfatı sahəsində qlobal bazarda rəqabət qabiliyyətini artıracaq.

## Ədəbiyyat

1. Abbasov, A. F. (2007). *Ərzaq təhlükəsizliyi*. Monoqrafiya, Bakı.
2. Abbasov, Q. N., Həsənov, M. Q. (2002). *Aqrar bazar və onun iqtisadi mexanizmi*. Bakı.
3. "Aqrar islahatın nəticələri və dayanıqlı inkişaf problemləri" (respublika elmi-praktiki konfransının materialları). (2006). Bakı.
4. Alıyev, İ. H. (2004). *Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətcə səmərəli aparılması*. Bakı, 110.
5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı. (2007). *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*. Bakı: Səda, 293.
6. Azerbaycanın Statistik Göstəriciləri - 2001, 2002, 2003. (2002-2003-2004). *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*. Bakı: Səda, 801.
7. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Strateji Yol Xəritəsi".
8. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/
9. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. https://atm.gov.az/
10. Aslanov, A. (2010, 28 aprel). *Müasir şəraitdə kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi problemləri*. Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini. Xalq qəzeti, 4.
11. Əliyev, İ. N. (2001). *Heydər Əliyev və Azərbaycan kənd təsərrüfatı*, II kitab. Bakı: «Ziya-Nurlan» NPM, 122.
12. Əhmədov, İ. V. (2006). *Kənd təsərrüfatının idarə edilməsi*. Ali məktəblər üçün dərslik. Bakı.
13. İbrahimov, İ. H. (2002). *Aqrar iqtisadiyyatın aktual problemləri.* Bakı: «Təhsil» EİM, 220.
14. İbrahimov, İ. H. (2005). *Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri*. Bakı, 360.
15. https://www.worldbank.org/en/publication/human-capital#Data?cid=GGH_e_hcpexternal_en_ext
16. http://modern.az/az/news/8805
17. Qarayev, İ. Ş. (2011). *Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi*. Ali məktəblər üçün dərslik.

Bakı.
18. Qasımov, Ə. C. (2007). *Kənd təsərrüfatının iqtisadiyyatı*. Ali məktəblər üçün dərslik. Rus dilindən tərcümə. Bakı.
19. İbrahimov, E. R. (2014). *İlham Əliyev və aqrar siyasət*. Bakı.
20. Salahov, S. V. (2004). *Aqrar sahənin dövlət tənzimlənməsi problemləri*. Bakı.